# Şəhid Cavadov Yalçın Aydın oğlu



**Yalçın Aydın oğlu Cavadov 1985-ci ilin mayın 19-da Azərbaycan Respublikasının Şamaxı rayonunun Sabir qəsəbəsində anadan olmuşdur. O, 1992-2002-ci illərdə rayonun A.Alxanov adına tam orta məktəbində təhsil almışdır. 195 saylı məktəbdə 9 il təhsil aldıqdan sonra müvəqqəti müxtəlif işlərdə çalışmışdır.**

Yalçın Cavadov 2003-2005-ci illərdə Dövlət Sərhəd Xidmətinin Naxçıvan şəhərində yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdə olmuşdur. 2017-ci ildən isə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq xidmət etmişdir.

Azərbaycan Ordusunun çavuşu olan Yalçın Cavadov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşmışdır. O, oktyabrın 9-da Füzuli döyüşləri zamanı şəhid olmuşdur. Şamaxı şəhərinin Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamına əsasən Yalçın Cavadov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", medalları ilə təltif edilmişdir.

**Azad Azərbaycan.- 2022- ci il.- 12 may.- S. 5.**